Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
AZ 1014, Bakı şəhəri, Bülbül pr ospekti, 40
☎ +(994 12) 598 1946 ✉ office@fiu.az 🌐 www.fiu.az

Maliyyə
Monitorinqi
Xidməti

AZƏRBAYCAN RESPUBLİKASININ
MALİYYƏ MONİTORİNQİ
XİDMƏTİNİN 2021-ci il üzrə
İLLİK HESABATI

2021

# İLLİK HESABATI



# MÜNDƏRİCAT


| | |
|---|---|
| Akronimlər | 3 |
| Ön söz | 5 |
| Qanunvericiliyin təkmilləşdirilməsi | 6 |
| Nəzarət fəaliyyəti | 8 |
| Analitik fəaliyyət | 9 |
| Statistika | 10 |
| Daxili əməkdaşlıq | 13 |
| Beynəlxalq əməkdaşlıq | 15 |
| İnsan resursları | 17 |
| İnformasiya texnologiyaları | 20 |

# AKRONİMLƏR

| | |
|---|---|
| FATF | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| GoAML | Xüsusi analitik modul sistemi |
| GUAM | Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova – Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilat |
| HMO | Hüquq mühafizə orqanları |
| İT | İnformasiya texnologiyaları |
| MMX | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti |
| MMO | Maliyyə monitorinqi orqanları |
| MONEYVAL | Avropa Şurasının Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| MRQ | Milli risk qiymətləndirilməsi |
| PL | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması |
| PL/TMM | Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi |
| TM | Terrorçuluğun maliyyələşdirilməsi |



# ÖN SÖZ

Bu hesabatda 2021-ci ildə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətində PL/TMM sahəsində aparılmış işlərdən bəhs edilir.

Hər ötən il özünəməxsus hadisələrlə yadda qaldığı kimi, 2021-ci il də MMX üçün xüsusilə 5-ci raund MONEYVAL qiymətləndirilməsinə hazırlıq baxımından atılan mühüm addımlarla əlamətdar olmuşdur. İl ərzində MMX-də hüquq-mühafizə, nəzarət orqanlarına, habelə xarici MMO-lar, maliyyə institutları və ümumilikdə tərəfdaşlarımıza effektiv dəstək verilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Pandemiyanın səbəb olduğu məhdudiyyətlərə baxmayaraq, bu il bir sıra istiqamətdə yeniliklərlə zəngin və səmərəli olmuşdur. Faktiki olaraq, maliyyə sisteminin bütövlüyünün qorunması və potensial risklərin məhdudlaşdırılması məqsədilə tərəfdaşlarımızla effektiv şəkildə əməkdaşlıq davam etdirilmişdir.

Məlumdur ki, PL/TMM üzrə siyasət quruculuğunun əsas istiqamətlərindən birini PL/TMM üzrə MRQ-nin həyata keçirilməsi təşkil edir. Odur ki, MRQ hesabatının ilkin layihəsinin hazırlanması və Koordinasiya Şurası çərçivəsində aidiyyəti dövlət qurumlarına təqdim edilməsini hesabat ilinin nailiyyətlərinə nümunə gətirsək, yanılmarıq.

Bundan əlavə, MMX-nin əsas vəzifələrindən biri kimi, lombardlar və rieltorlar üçün daxili nəzarət sisteminə dair tələbləri özündə əks etdirən nümunəvi sənəd hazırlanmış, risk əsaslı yanaşmanın tətbiqini təmin etmək məqsədilə aidiyyəti şəxslərlə görüşlər keçirilmişdir.

Hesabat ilinin nailiyyətlərindən bəhs edərkən, MMX tərəfindən notariat ofislərdə təhlükəsiz kanal vasitəsilə məlumatların MMX-yə müvafiq qaydada ötürülməsi üçün veb servisin qurulmasını qeyd etməyi də vacib hesab edirik.

Beləliklə, 2021-ci ildə PL/TMM sahəsində ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilmişdir.

MMX əməkdaşlarının peşəkar inkişafını təmin etmək məqsədilə onların ölkədə və xaricdə keçirilən tədbirlərdə iştirakı təmin edilmiş, əməkdaşlarımız nüfuzlu beynəlxalq sertifikatlar əldə etmişdir. Həmçinin, PL/TMM sisteminin iştirakçıları üçün MMX tərəfindən məqsədli təlimlər təşkil edilmişdir.

**Rövşən Nəcəf**
**İdarə Heyətinin sədri**



# QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ

2021-ci ildə Azərbaycan Respublikasında PL/TMM sahəsində həyata keçirilən islahatlar əsas etibarilə qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılmasını və beynəlxalq təcrübədə mövcud olan qabaqcıl institutların implementasiyasını əhatə etmişdir. Eyni zamanda, PL/TMM üzrə siyasət quruculuğu çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarından irəli gələn tədbirlərin icrası və Azərbaycan Respublikasına münasibətdə 2022-ci ildən başlanması nəzərdə tutulan Avropa Şurasının MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsinə hazırlığın təşkili istiqamətində ardıcıl fəaliyyətlər davam etdirilmişdir.

Qanunvericiliyin təkmilləşdirilməsi və siyasət quruculuğu üzrə tədbirlər əsas etibarilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı” (Milli Fəaliyyət Planı) və Nazirlər Kabinetinin 404 nömrəli Qərarı çərçivəsindəki öhdəliklərin icrasını əhatə etmişdir.

Belə ki, Milli Fəaliyyət Planının 3.8-ci bəndinin icrası məqsədilə MMX tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarının layihələrinin Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarı ilə yaradılmış Koordinasiya Şurası (Koordinasiya Şurası) çərçivəsində aidiyyəti dövlət qurumları ilə razılaşdırılması istiqamətində müzakirələr davam etdirilmişdir.

Bundan başqa “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair” Avropa Şurası Konvensiyasının (CETS 198) horizontal qiymətləndirməsi aparılmış müddəalarının qanunvericiliyə implementasiyası istiqamətində də fəaliyyətlər davam etdirilmişdir. Eyni zamanda, hesabat ili ərzində Milli Fəaliyyət Planının 3.8-ci bəndi çərçivəsində PL/TMM üzrə beynəlxalq standartlarda yer alan “maliyyə istintaqı” institutunun milli qanunvericiliyə implementasiyasına dair işlər aparılmışdır. Bu xüsusda paralel maliyyə istintaqı institutunun implementasiyası məqsədilə qanunvericiliyə dəyişiklik layihəsi hazırlanmış və aidiyyəti dövlət qurumları ilə müzakirələr aparılmışdır. Həmçinin maliyyə institutlarında mühüm iştirak payının mülkiyyətçiləri və benefisiar(lar)ına, habelə lisenziyalaşdırma prosesinə dair tələblərin qanunvericiliyə implementasiyası məqsədilə sahəvi qanunlara dəyişiklik layihəsi hazırlanmış və aidiyyəti dövlət dövlət qurumları ilə müzakirələr aparılmışdır. Bu dəyişiklik layihəsi də qanunvericiliyin müvafiq sahədə beynəlxalq tələblərə uyğunlaşdırılmasını əhatə edir.

2020-ci ildən etibarən davam edən əməkdaşlıq çərçivəsində PL/TM zamanı istifadə edilən əmlakın dövlət nəfinə alınması ilə bağlı maddi və prosessual qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar BMT-nin Regionlararası Cinayət və Ədalət Tədqiqat İnstitutunun ekspertləri ilə müzakirələrin nəticəsi olaraq hazırlanmış “Pul vəsaitlərinin qanunsuz hərəkəti və aktivlərin qaytarılması – Azərbaycan Respublikası” adlı hesabat bu qurumun rəsmi saytında dərc edilmişdir. Hesabat aktivlərin bərpası üzrə qanunvericiliyinin təkmilləşdirilməsinə, xüsusilə genişləndirilmiş və mülki müsadirə prosedurlarının tətbiqinə, habelə aktivlərin bərpası yollarının diversifikasiyasının təmin edilməsinə dair tövsiyələri ehtiva edir.

2021-ci il ərzində PL/TMM üzrə siyasət quruculuğunun əsas istiqamətlərini PL/TMM üzrə MRQ-nin həyata keçirilməsi və MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsi üçün ölkədaxili hazırlıq proseslərinin sürətləndirilməsi təşkil etmişdir.

MRQ prosesi çərçivəsində fəaliyyətlər Koordinasiya Şurasının ümumi rəhbərliyi altında icra edilmişdir. Koordinasiya Şurasının 2020-ci il 25 dekabr tarixində baş tutan ilk iclasında MRQ-nin aparılacağı metodologiya təsdiq edilmiş və təhlillərin aparılması üçün beş işçi qrupu yaradılmışdır. 2021-ci il ərzində razılaşdırılmış icra qrafiki və MRQ metodologiyasına uyğun olaraq təhlillər aparılmış və müzakirələr keçirilmişdir. Bu fəaliyyətlərin yekunu olaraq MRQ hesabatının ilkin layihəsi hazırlanmış və Koordinasiya Şurası çərçivəsində aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir.

MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsinə hazırlıq çərçivəsində fəaliyyətlər geniş spektrdə davam etdirilmişdir. Bu istiqamətdə prioritet məsələlərdən biri qiymətləndirməyə qədərki mərhələdə milli PL/TMM sistemi üzrə diaqnostikanın aparılması olmuşdur. Bu məqsədlə 2020-ci ildə MMX ilə müvafiq sahədə zəngin təcrübəyə malik beynəlxalq ekspertlə əməkdaşlığa başlanmış və 2020-ci ilin 7-11 dekabr tarixləri arasında Koordinasiya Şurasına daxil olan dövlət qurumlarının təmsilçiləri, habelə monitorinq subyektlərinin nümayəndələri ilə sözügedən ekspert arasında görüşlər təşkil edilmişdir. Bu görüşlərin nəticəsi olaraq milli PL/TMM sisteminin sınaq qiymətləndirmə hesabatı hazırlanmış və 2021-ci ilin fevral ayında Nazirlər Kabinetinə təqdim edilmişdir. Bundan başqa qeyd edilən sınaq qiymətləndirmə hesabatı üzrə aşkarlanan çatışmazlıq və zəifliklərin aradan qaldırılması üçün MMX tərəfindən Tədbirlər Planı hazırlanmış, aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq 2021-ci ilin noyabr ayında Nazirlər Kabinetinə təqdim edilmişdir.

# NƏZARƏT FƏALİYYƏTİ



2021-ci il ərzində nəzarət orqanlarına münasibətdə müvafiq sahədə beynəlxalq standartları müəyyən edən institutlar tərəfindən hazırlanan sənədlər əsasında PL/TMM qanunvericiliyində və müvafiq metodoloji təminatda risk yönümlü yanaşmanın formalaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilmişdir.

Hesabat ili ərzində PL/TMM qanunvericiliyinin tələblərinə uyğun olaraq, MMX-nin nəzarət orqanı kimi çıxış etdiyi monitorinq subyektləri (lombardlar və rieltorlar) üçün daxili nəzarət sisteminə dair tələbləri özündə əks etdirən nümunəvi sənəd hazırlanmış, risk əsaslı yanaşmanın tətbiqini təmin etmək məqsədilə bir sıra onlayn və əyani görüşlər keçirilmiş və əməkdaşlıq istiqamətləri müəyyən edilmişdir. Bu xüsusda daxili nəzarət sisteminin təşkili, məsul şəxsin təyin edilməsi və digər əlaqəli məsələlər, eləcə də müvafiq hesabatların maliyyə monitorinqi orqanına təqdim edilməsi qaydaları və digər məqamlar müzakirə olunmuşdur. Bundan başqa, ölkədə fəaliyyət göstərən bankların birinin nümunəsində maliyyə institutunun daxili nəzarət sisteminin qiymətləndirməsi aparılmış və onun əsasında diaqnostik hesabat hazırlanmışdır.



# ANALİTİK FƏALİYYƏT

Notariuslar tərəfindən PL/TMM üzrə şübhəli əməliyyatların avtomatik rejimdə MMX-nin məlumat bazasına ötürülməsi ilə bağlı nəzərdə tutulan veb servisin qurulması işləri və təhlükəsizlik kanalının yaradılması 2021-ci ilin avqust ayında tamamlanmışdır. Bu xüsusda notariuslar artıq öz daxili proqram təminatına əlavə edilən funksiya vasitəsilə MMX tərəfindən hazırlanmış veb servisdən istifadə edərək şübhəli əməliyyatları avtomatik rejimdə MMX-yə ötürə bilirlər.



# STATİSTİKA

2021-ci il ərzində monitorinq subyektləri tərəfindən MMX-yə ümumilikdə 53096 hesabat[1] təqdim olunmuşdur.

**Diaqram 1.**
**2020-2021-ci illər üzrə MMX-yə daxil olmuş hesabatların sayı**




MMX-nin elektron informasiya bazasına daxil olmuş müvafiq məlumatlardan 27841-i (52%) cari əməliyyatlar, 23295-i (44%) yüksək riskli əməliyyatlar, 499-u (1%) şübhəli əməliyyatlar barədə və 1461-i (3%) isə digər növ hesabatlar olmuşdur.

**Cədvəl 1.**
**2021-ci ildə MMX-yə daxil olmuş hesabatlar**

| Daxil olmuş hesabatların kateqoriyaları | Hesabatların sayı | Xüsusi çəki, (%-lə) |
|---|---|---|
| Cari əməliyyatlar (CTR) | 27 841 | 52% |
| Yüksək riskli əməliyyatlar (HRR) | 23 295 | 44% |
| Şübhəli əməliyyatlar (STR) | 499 | 1% |
| Digər əməliyyatlar (OTR) | 1 461 | 3% |
| **CƏMİ** | **53 096** | **100%** |

[1] MMX-yə məlumatlar hesabat formasında daxil olur. Bir hesabata bir və birdən çox əlaqəli əməliyyatlar əlavə oluna bilər.

2021-ci il üzrə təqdim olunmuş hesabatlara əlavə olunmuş əməliyyatların 54%-ni hüquqi, 46%-ni isə fiziki şəxslərin əməliyyatları təşkil etmişdir.

Hesabat dövründə MMX tərəfindən şübhəli əməliyyatların təhlili ilə əlaqədar 6882 daxili və 38 xarici sorğu (17 ölkəyə) verilmişdir. Verilmiş daxili sorğuların 6825-i (99%) monitorinq subyektlərinin, 43-ü hüquq mühafizə orqanlarının (HMO), 14-ü isə ölkədaxili digər qurumların payına düşür.

**Cədvəl 2.**
**2021-ci ildə MMX tərəfindən sorğu verilmiş ölkədaxili subyektlər**

| Sorğu verilmiş ölkədaxili subyektlər | Sorğuların sayı |
|---|---|
| Monitorinq subyektləri | 6 825 |
| HMO | 43 |
| Digər ölkədaxili qurumlar | 14 |
| **CƏMİ** | **6 882** |

Xarici maliyyə monitorinqi orqanlarına (MMO) verilmiş sorğuların 61%-i cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması (PL), 8%-i terrorçuluğun maliyyələşdirilməsi (TM), 21%-i dələduzluq, 10%-i kibercinayətkarlıq şübhəsi ilə bağlı olmuşdur.

Hesabat ili ərzində MMX tərəfindən araşdırılmış şübhəli hallar ilə bağlı HMO-lara 34 iş barədə məlumat təqdim olunub (o cümlədən, Azərbaycan Respublikasının Baş Prokurorluğuna 18, Dövlət Təhlükəsizliyi Xidmətinə 15 və Daxili İşlər Nazirliyinə 1 məlumat). Müvafiq işlərin 14-ü monitorinq subyektlərindən, 18-i HMO-lardan, 1-i xarici MMO-dan daxil olmuş məlumatların, 1-i isə açıq mənbə məlumatının MMX tərəfindən araşdırılması əsasında təqdim olunub.

**Cədvəl 3.**
**MMX tərəfindən HMO-lara təqdim edilən məlumatların statistikası**

| Daxil olmuş hesabatların kateqoriyaları | Baş Prokurorluğa | DTX-yə | | DİN-ə |
|---|---|---|---|---|
| | PL | TM | Kibercinayət | Dələduzluq |
| Monitorinq subyektlərindən daxil olan məlumat | 7 | 4 | 2 | 1 |
| Açıq mənbə məlumatı | 1 | | | |
| Xarici MMO-lardan daxil olan məlumat | - | 1 | - | - |
| HMO-dan daxil olan məlumat (sorğu) | 10 | 8 | - | - |
| **CƏMİ** | **18** | **13** | **2** | **1** |



Bundan əlavə, 2021-ci il ərzində HMO-dan PL ilə bağlı daxil olmuş 27 sorğu və TM ilə bağlı daxil olmuş 13 sorğu aidiyyəti üzrə araşdırılaraq müvafiq HMO-lara təqdim olunmuşdur. Hesabat ili ərzində xarici MMO-lardan (31 ölkədən) daxil olmuş 43 sorğu (40-ı PL, 2-i dələduzluq, 1-i TM) MMX tərəfindən araşdırılaraq cavablandırılmışdır.

Taktiki təhlili əhatə edən bu fəaliyyətlərlə yanaşı, 2021-ci il ərzində MMX-də strateji təhlil üzrə də fəaliyyətlər davam etdirilmişdir. Bu çərçivədə hüquq mühafizə orqanlarına təqdim edilən işlər əsasında 3 tipologiya hazırlanmışdır. Bu tipologiyalar "narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən mütəşəkkil dəstə tərəfindən əldə olunmuş vəsaitlərin yuyulması", "şəxslərin kart məlumatlarının aldadılaraq əldə edilməsi nəticəsində onlara məxsus pul vəsaitlərinin xarici bank kartlarına köçürülərək nağdlaşdırılması" və "kart məlumatlarının oğurlanması nəticəsində pul vəsaitlərinin onlayn ödəniş sistemi vasitəsilə bank kartlarına köçürülərək nağdlaşdırılması" mövzularını əhatə etmişdir. Bundan əlavə, hesabat dövründə MMX-nin məlumat bazasına daxil olmuş məlumatların rüblük və digər tendensiyaları özündə əks etdirən və daxili istifadə üçün nəzərdə tutulan statistik bülletenlər; monitorinq subyektləri, eləcə də nəzarət orqanları və HMO-lar üçün "Banklar tərəfindən şübhəli əməliyyatlar barədə yüksək keyfiyyətli hesabatların hazırlanması və maliyyə monitorinqi orqanına təqdim edilməsinə dair" və "Virtual aktivlərin istifadəsi və virtual aktivlər üzrə xidmət təminatçılarının fəaliyyəti ilə əlaqəli meydana çıxan PL/TM risklərinə dair" metodiki vəsaitlər hazırlanmışdır.

**Cədvəl 4.**
**2021-ci il ərzində xarici maliyyə monitorinqi orqanlarından daxil olmuş məlumatlar**

| MMX-yə daxil olan məlumatlar | Spontan məlumatlar | Sorğular | Sorğuya cavab |
|---|---|---|---|
| 121 | 35 | 48 | 38 |

**Cədvəl 5.**
**2021-ci il ərzində MMX-dən xarici maliyyə monitorinqi orqanlarına gedən məlumatlar**

| MMX-dən xaric olan məlumatlar | Spontan məlumatlar | Sorğular | Sorğuya cavab |
|---|---|---|---|
| 81 | 2 | 38 | 41 |



# DAXİLİ ƏMƏKDAŞLIQ

Əvvəlki illərdə olduğu kimi, 2021-ci il ərzində də MMX monitorinq subyektləri, hüquq mühafizə və məhkəmə orqanları, habelə digər dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı davam etdirmişdir. Dünyada cərəyan edən COVİD-19 pandemiyasının yaratdığı məhdudiyyətlər şəraitində Nazirlər Kabinetinin müəyyən etdiyi tələblər daxilində MMX yuxarıda adıçəkilən qurum və təşkilatlarla mütəmadi onlayn, hibrid və əyani tədbirlər təşkil etmişdir.

MMX 2021-ci il üçün razılaşdırılmış təlim planına uyğun olaraq, monitorinq subyektləri, HMO və nəzarət orqanları üçün Azərbaycanda PL/TM risklərinin başa düşülməsi, benefisiar mülkiyyətçilik, maliyyə təhqiqatı üçün məlumat mübadiləsinin rolu, pulların leqallaşdırılması əməlinin cinayət hüquqi xarakteristikası, milli risk qiymətləndirməsinin həyata keçirilməsi üzrə çıxarılmış nəticələr və əsas çətinliklər, bank əməliyyatlarının Power BI desktop proqramı və MS Excell vasitəsilə təhlili, MMX-ya təqdim olunan şübhəli əməliyyatlara dair hesabatların keyfiyyəti və qarşılıqlı məlumat mübadiləsinin effektivliyinin yüksəldilməsi yolları kimi mövzular üzrə ümumilikdə 10 təlim keçirmiş, bu təlimlərə 300-ə yaxın iştirakçı qatılmışdır.



Hesabat ili ərzində MMX-də həm də müasir dövr informasiya-kommunikasiya texnologiyalarının aktiv şəkildə təlim-tədris prosesinə tətbiq edildiyini nəzərə alaraq, yeni və innovativ tədris metodları və yanaşmalarını ehtiva edən e-tədris platformasının hazırlanması istiqamətində əsaslı hazırlıq işləri görülmüşdür. Yaxın zamanda təqdim edilməsi nəzərdə tutulan platforma sayəsində monitorinq subyektləri, HMO və məhkəmə, nəzarət orqanlarının əməkdaşları, ümumilikdə, arzu edən hər kəs PL/TMM sahəsi üzrə yeni biliklər əldə edə biləcək.

MMX-nin işçi heyətinin peşəkar inkişafı istiqamətində hesabat ili ərzində müvafiq tədbirlər görülmüşdür. Belə ki, "JSTOR" elektron məlumat bazası ilə danışıqlar aparılmış, bazanın Təhlükəsizlik Araşdırmaları kolleksiyası hesabat ili ərzində MMX əməkdaşları üçün aktivləşdirilmiş, o cümlədən "EMERALD" elektron məlumat bazasına çıxış yenilənmişdir.

İl ərzində BMT-nin Təhlükəsizlik Şurasının İŞİD və "Əl-Qaidə" Sanksiya Komitəsinin Ümumi Siyahısı yeniləndikcə, müvafiq siyahı MMX-nin veb-səhifəsində əlavə edilib və nəzərə alınması üçün müvafiq dövlət qurumlarına bildiriş məktubları göndərilmişdir. Eyni zamanda, milli qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilmiş fiziki və hüquqi şəxslərin ölkədaxili siyahısı da ötən il ərzində yenilənərək veb-səhifədə işıqlandırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.10.2020-ci il tarixli 404 nömrəli Qərarı ilə yaradılmış Koordinasiya Şurasının 25.12.2020-ci il tarixli iclasında MRQ prosesinin həyata keçirilməsi məqsədilə yaradılmış işçi qrupları tərəfindən MRQ metodologiyası və 404 nömrəli Qərarda yer alan istiqamətlər üzrə hesabat ili ərzində təhlillər aparılmışdır. Sözügedən işçi qruplarından ikisinə – Milli zəifliklərin qiymətləndirilməsi və Digər maliyyə institutları və peşəkarları üzrə zəifliklərin qiymətləndirilməsi üzrə işçi qruplarına rəhbərlik birbaşa MMX tərəfindən həyata keçirilmişdir. Digər işçi qruplarının fəaliyyətində də qurumlararası əməkdaşlığın təmin edilməsi və təhlillərin aparılmasında MMX əməkdaşları aktiv iştirak etmişdir.

Ümumilikdə, 404 nömrəli Qərara uyğun olaraq Koordinasiya Şurasının katibliyi funksiyasının icrası çərçivəsində həm MRQ prosesi üçün yaradılan işçi qrupları, həm də PL/TMM qanunvericiliyinin harmonizasiyası məqsədilə yaradılan xüsusi işçi qrupu çərçivəsində bütün fəaliyyətlərin əlaqələndirilməsi və məlumat mübadiləsinin təmin edilməsi bilavasitə MMX tərəfindən həyata keçirilmişdir.

Qeyd olunanlardan əlavə, sözügedən dövrdə MMX həm də www.youtube.com saytında rəsmi hesab açaraq məlumatlandırma məqsədilə il ərzində 3 yeni video hazırlayıb yerləşdirmiş, yeniliklərin aidiyyəti qurumlara və şəxslərə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür.

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Avropa Şurasının Pulların Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) V raund qiymətləndirilməsinə hazırlığın təmin edilməsi üçün milli və institusional səviyyədə yol xəritələrinin hazırlanması məqsədilə FATF-ın 36-40-cı tövsiyələri üzrə digər ölkələrin hesabatları nəzərdən keçirilmiş və Azərbaycanın həmin tövsiyələrə uyğunluğu aidiyyəti üzrə təhlil edilmişdir.

Habelə, 26-30 aprel tarixlərində onlayn formatda keçirilmiş MONEYVAL 61-ci Plenar İclasında Azərbaycan Respublikasının nümayəndə heyətinin iştirakı təmin edilmişdir.

2-4 iyun tarixlərində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının “Korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsi” adlı xüsusi sessiyasında MMX-nin nümayəndəsi çıxış etmiş, Ermənistan və Azərbaycan arasında baş vermiş 44 günlük müharibə dövründə xaricdə fəaliyyət göstərən erməni diaspor təşkilatları tərəfindən vəsait toplandığını və yığılan hissəsinin qanunsuz olaraq Ermənistan büdcəsinə köçürüldüyünü auditoriyaya çatdırmışdır.

3 iyun tarixində Avropa İttifaqı/Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının “Azərbaycanda pulların leqallaşdırılmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” layihəsi çərçivəsində MMX-nin dəstəyi ilə “Milli risk qiymətləndirilməsinin həyata keçirilməsi üzrə çıxarılmış nəticələr və əsas çətinliklər” mövzusunda video konfrans formatında seminar keçirilmişdir.

Bununla yanaşı, Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə keçirilən “Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II” proqramının “Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” layihəsi üzrə Rəhbər Komitənin 16 iyulda video-konfrans formatında keçirilən iclasında Əməkdaşlıq departamentinin direktoru iştirak etmişdir.

Əlavə olaraq, cari ildə Avropa Şurasının təşkilatçılığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə Şərq Tərəfdaşlığı Proqramına daxil olan ölkələr üçün “CyberEast” layihəsinin bir neçə tədbirində MMX əməkdaşlarının iştirakı təmin edilmişdir.

Həmçinin, 10 iyun tarixində MMX-nin əməkdaşları Şimali Makedoniya MMO tərəfindən təşkil olunmuş "QKT sektorunda milli risk qiymətləndirilməsi" mövzusunda onlayn tədbirdə iştirak etmişlər.

Eyni zamanda, 24-25 iyun tarixlərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən regional layihə çərçivəsində MMX-nin müvafiq departamentlərinin əməkdaşlarının da iştirak etdiyi “Benefisiar mülkiyyətçilikdə şəffaflığın yaxşılaşdırılması” mövzusunda beynəlxalq konfrans keçirilmişdir.



MMX beynəlxalq əməkdaşlığı möhkəmləndirmək məqsədilə Anlaşma Memorandumunun imzalanması üzrə Qazaxıstan, İsrail, Ukrayna MMO-ları ilə danışıqlar aparmış, habelə Türkmənistan MMO-su ilə razılaşdırılmış memorandumun imzalanmasına dair işlər davam etdirilmişdir. Bu istiqamətdə, 9 sentyabr tarixində MMX ilə İsrailin Pulların Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə İdarəsi (İMPA) arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (PL/TMM) dair Anlaşma Memorandumu imzalanmışdır.

Bununla yanaşı, cari ilin 21 oktyabr tarixində Beynəlxalq Anti-Terror Təlim Mərkəzində MMX-nin və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyələşdirdiyi Şəffaflıq naminə Vətəndaş Cəmiyyəti (ECSOFT) layihəsinin birgə təşkilatçılığı ilə "Qeyri kommersiya sektorunda terrorçuluğun maliyyələşdirilməsinin risk qiymətləndirilməsi" mövzusunda beynəlxalq seminar keçirilmişdir.

6-7 dekabr tarixlərində eyni layihə çərçivəsində MMX banklar və investisiya şirkətlərinin əməkdaşları üçün "Yeni texnologiyalar və virtual aktivlər üzrə PL/TM riskləri" mövzusunda təlim təşkil etmişdir. 13-17 dekabr tarixlərində Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına tərəf dövlətlərin konfransının 9-cu sessiyası baş tutmuşdur. Konfrans çərçivəsində 14 dekabr tarixində Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə "İanə toplanması üzrə fəaliyyətin korrupsiya və əlaqəli cinayətkarlıq məqsədləri üçün sui-istifadə edilməsi" mövzusunda paralel tədbirdə MMX-nin Əməkdaşlıq departamentinin direktoru Fuad Əliyev uğurlu təqdimatla çıxış etmişdir.

Həmçinin, cari il ərzində MMX əməkdaşları beynəlxalq səviyyədə uğurlara nail olmuşdur. Belə ki, PL/TMM üzrə beynəlxalq təşkilatlar çərçivəsində aktiv əməkdaşlığın və iştirakçılığın təmin edilməsi üzrə "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurası Konvensiyasının (CETS 198) Tərəflər Konfransının 17-18 noyabr tarixlərində baş tutan 13-cü Plenar İclasında MMX-nin Hüquq departamentinin direktoru Azər Abbasov CETS 198 üzrə Tərəflər Konfransının Bürosuna üzv seçilmişdir.

Eyni zamanda, MMX-nin bir sıra əməkdaşları 30 noyabr-1 dekabr tarixlərində Belçika Krallığının Brüssel şəhərinə "Avropa İttifaqı Şərq Tərəfdaşlığı Ölkələrində Aktivlərin Bərpasının İnkişafına Dəstək" layihəsi çərçivəsində korrupsiya və ya digər ağır cinayətlərlə bağlı aktivlərin axtarışı, həbsi, müsadirəsi və idarə edilməsi sahəsində ən yaxşı təcrübələri öyrənmək məqsədilə Belçika Həbs və Müsadirə Mərkəzi Ofisi ilə birgə BMT-nin Regionlararası Cinayət və Ədalət Araşdırma İnstitutu (UNICRI) tərəfindən təşkil edilmiş tədris turunda iştirak etmişdir.

İkitərəfli əlaqələr müstəvisində digər MMO-lar tərəfindən daxil olan müraciətlərin vaxtında cavablandırılması Məlumatların təhlili departamenti ilə birgə təmin edilmişdir. Bununla əlaqədar olaraq, digər MMO-lar, eləcə də Eqmont Qrupu, MONEYVAL, FATF və digər beynəlxalq təşkilatlar tərəfindən PL/TM ilə mübarizə üzrə aparılan işlərlə bağlı daxil olan məlumatlar təhlil edilmiş və müvafiq arayışlar hazırlanmış, ölkələrin qiymətləndirilməsinə dair FATF tərəfindən MONEYVAL vasitəsilə göndərilən sorğular cavablandırılmışdır. Həmçinin, sonuncu benefisiar mülkiyyətçi qeydiyyatı ilə bağlı xarici təcrübənin öyrənilməsi məqsədilə xarici MMO-lara sorğular göndərilmişdir.



# İNSAN RESURSLARININ İNKİŞAFI

MMX-də 55 ştat vahidi mövcuddur.



**Cədvəl 6.**
**MMX-də ştat vahidlərinin sayı**

| Struktur bölmənin adı | Ştat vahidinin sayı |
|---|---|
| İdarə heyətinin sədri | 1 |
| İdarə heyətinin sədr müavini | 2 |
| Müşavir | 1 |
| Departament direktoru | 5 |
| Şöbə rəisi | 14 |
| Böyük mütəxəssis | 10 |
| Aparıcı mütəxəssis | 5 |
| Mütəxəssis | 12 |
| Texniki ştat | 5 |
| **Cəmi** | **55** |

MMX-nin işçi heyəti əsas etibarilə gənclərdən ibarətdir və orta yaş göstəricisi 38-dir.

**Diaqram 1.**
**Heyətin yaş qrupları üzrə bölgüsü**




**Diaqram 2.**
**Heyətin gender strukturu**

2021-ci ildə heyətin cinsə görə strukturu






MMX-nin yüksək peşəkarlığa malik olan əməkdaşlarının xarici dil bilgiləri də yüksək səviyyədədir. Əməkdaşların mütləq əksəriyyəti ingilis, rus və türk dili, habelə alman, fransız, ispan, ərəb, dili biliklərinə malikdir.

MMX-nin institusional potensialının gücləndirilməsi tədbirləri çərçivəsində insan resurslarının idarəedilməsi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı tədbirlər 2021-ci ildə də davam etdirilmişdir.

Hər il olduğu kimi, 2021-ci il əməkdaşların nailiyyətlərinin qiymətləndirilməsi və motivasiyası tədbirləri çərçivəsində bir sıra addımlar atılmışdır. Belə ki, müvafiq prosedurlar əsasında MMX əməkdaşlarının fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi yenidən təhlil olunaraq həyata keçirilmiş və qiymətləndirmənin nəticələrinə uyğun olaraq motivasiya tədbirləri tətbiq olunmuşdur.

Həmçinin, 2021-ci ilin təlim planına əsasən qoyulmuş təlim ehtiyacları çərçivəsində 3 MMX əməkdaşı ACAMS beynəlxalq sertifikatını əldə etmişdir.

# İNFORMASİYA TEXNOLOGİYALARI

MMX-nin informasiya texnologiyaları infrastrukturunun təkmilləşdirilməsi və müvafiq elektron xidmətlərin göstərilməsi istiqamətində 2021-ci il ərzində bir sıra tədbirlər görülmüşdür.

Bu istiqamətdə, hesabat ili ərzində MMX-nin rəsmi internet səhifəsi yenidən qurulmuşdur. Müəyyən dövlət qurumları tərəfindən gələn məlumatları qəbul etmək üçün müvafiq təhlükəsizlik internet kanallar konfiqurasiya edilmişdir.

Həmçinin, MMX-nin informasiya ehtiyatının və sisteminin nüsxələnməsi və proqram təminatının mütəmadi yenilənməsi həyata keçirilmişdir. Server avadanlıqlarında sistem və audit loq jurnallarının izlənməsi, eləcə də məxfiliyin qorunması və kənar müdaxilələrin məhdudlaşdırılması məqsədilə serverlərin və inzibatçıların şifrələrinin vaxtaşırı yenilənməsi də hesabat ili ərzində təmin edilmişdir.

Ötən il ərzində MMX tərəfindən 11 müvafiq monitorinq subyekti və 26 yeni məsul şəxs GoAML sistemində qeydiyyatdan keçmişdir.

MMX-nin rəsmi internet səhifəsinin indikatorları və istifadəçilərin sayı haqqında ərtaflı monitorinq aparmaq üçün beynəlxalq praktikada geniş istifadə olunan "Google Analytics" proqram təminatı quraşdırılmışdır. 2021-ci il üzrə internet səhifəsinin monitorinq nəticələri aşağıda təqdim olunur.

**2021-ci il ərzində MMX-nin internet səhifəsinin indikatorlarına dair hesabat**

| Seansların sayı | İstifadəçilərin sayı | Səhifələrin baxılması sayı | Yeni istifadəçilər | Qayıtmış istifadəçilər |
|---|---|---|---|---|
| 36 016 | 17 070 | 97 077 | 16 623 | 3 306 |



